www.kaspi.az 18 mart 2015



■ FİZULİ İBRAHİMZADƏ
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Humanitar fənlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru

**1881-ci ildə İrəvan quberniyası Şərur-Dərələyəz qəzasının (indiki Naxçıvan MR Şərur rayonunun) Şahtaxtı kəndində yoxsullaşmış bəy ailəsində anadan olan Behbud Şahtaxtinski dördsinifli kənd məktəbini bitirib, çörək qazanmaq üçün Bakıya gəlmiş, sonralar Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayaraq bütün şüurlu həyatını respublikanın daxili və xarici siyasəti ilə bağlamışdır.**



# Azərbaycanın görkəmli diplomatı

## Behbud Şahtaxtinski bütün şüurlu həyatını respublikanın daxili və xarici siyasəti ilə bağlayıb

B.Şahtaxtinski "Hümmət" təşkilatının sədrliyindən Azərbaycan Respublikası Xalq Ədliyyə Komissarı və Xalq Komissarları Soveti sədrinin müavininədək yüksəlmiş, Naxçıvan SSR Fövqəladə Komissarı və Naxçıvan SSR Xalq Komissarları Sovetinin sədri kimi mühüm vəzifələrdə işləyərək, dövlətçilik siyasətində uzun və mürəkkəb yol keçmiş, 1920-ci il sentyabrın 30-da Moskvada "Hərbi və iqtisadi ittifaq haqqında RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış müqavilə"ni imzalamış, 1921-ci il martın 16-da Moskvada imzalanmış "Dostluq və Qardaşlıq haqqında" RSFSR-Türkiyə müqaviləsində və həmin ilin oktyabrın 13-də Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR hökumətləri bir tərəfdən, Türkiyə Böyük Millət Məclisi hökuməti isə digər tərəfdən RSFSR hökumətinin iştirakı ilə imzalanmış Qars müqaviləsində Azərbaycanı təmsil etmiş və canla bərabər Türkiyəyə qarşı da ikili siyasət yeridirdi. Əslində bu regionda Rusiyanın ikili mövqeyi onun əbədi imperiya maraqlarından irəli gəlirdi. Bu haqda sonralar Behbud Şahtaxtinski demişdi ki, Azərbaycan Türkiyə ilə Rusiya arasında bir əlaqə vasitəsidir. Şərqin oyanması üçün gələcək bəşər məqsədinin körpüsüdür. İki tərəfdən dartılan sallaq vəsilədir. Rusların at oynatmaq istədiyi körpüdür.

1920-ci il iyulun 13-də AK(b) P MK Bürosu siyasi, hərbi və iqtisadi xarakterli bir sıra məsələləri aydınlaşdırmaq üçün Azərbaycan SSR-in nümayəndəsi kimi Moskvaya gedəcək Behbud Şahtaxtinskinin məruzəsi haqqında məsələni müzakirə etdi. Azərbaycan SSR ilə RSFSR arasında qarşılıqlı münasibətlər və B.Şahtaxtinskiyə veriləcək direktivlər barəsində məsələlər iyulun 15-də AK(b) P MK bürosunda yenidən müzakirə olundu və büro xüsusi komissiyaya təklif etdi ki, Azərbaycan SSR-in RSFSR-dəki nümayəndəsi B.Şahtaxtinski üçün direktivlərin müddəalarını işləyib hazırlasın.

Gürcüstanda fəaliyyət göstərən Zaqafqaziya Ali Arbitraj Komissiyasının üzvü kimi fəaliyyət göstərərək 1924-cü il may ayının 30-da Tiflisdə müəmmalı şəkildə vəfat etmişdir.

Məlumdur ki, 1928-1921-ci illərdə Zaqafqaziyada mürəkkəb bir siyasi vəziyyət yaranmışdı. Əslində üç "müstəqil respublika" dörd xarici dövlətin - Türkiyə, Rusiya, İngiltərə və ABŞ-ın geosiyasətinin düyün nöqtəsinə çevrilmişdi. Digər tərəfdən Daşnak Ermənistanı "Böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycandan torpaq iddiası edərək özünün təcavüzkar əməllərini gücləndirirdi. Hətta Ermənistan hökuməti şayiə yaymışdı ki, "Azərbaycanda olan Qızıl Ordu deyil, Denikinin qoşunlarıdır".

1920-ci il mayın 20-də RK(b) P MK-nın qəbul etdiyi qərarda deyilirdi ki, G.Çiçerinə (Rusiyanın Xarici İşlər Komissarı - F.İ) tapşırılsın ki, qarşılıqlı münasibətləri müəyyənləşdirmək üçün danışıqlara başlamaq təklifi ilə Azərbaycan Sovet hökumətinə müraciət etsin. Bu məqsədlə RSFSR hökuməti adından Xarici İşlər Komissarı G.Çiçerin öz imzası ilə Azərbaycan SSR hökumətinin başçısı N.Nərimanova xüsusi nota göndərərək danışıqlara başlamağı təklif etmişdi.

Qeyd etmək lazımdır ki, həmin dövrdə RSFSR hökuməti Azərbaycanla bərabər ...

Eyni zamanda iyulun 15-də Azərbaycan İnqilab Komitəsi B.Şahtaxtinskini Rusiyaya fövqəladə və səlahiyyətli nümayəndə təyin etdi və ona "RSFSR hökuməti ilə bütün məsələlər, istər siyasi, istərsə də iqtisadi məsələlər barədə danışıqlar aparmaq və sonradan təsdiq olunmaq şərti ilə, Azərbaycan SSR adından hər cür müqavilə və öhdəliklər imzalamaq üçün" mandat verdi.

1920-ci il iyulun 26-da Moskvaya gələn B.Şahtaxtinskini V.İ.Lenin və G.Çiçerin qəbul etdilər. B.Şahtaxtinskinin Sovet Azərbaycanının vəziyyəti haqqında gətirdiyi materiallarla tanışlıqdan sonra G.Çiçerin 1920-ci il avqustun 4-də PK(b) P MK Siyasi Bürosuna məktubla müraciət etmiş və təcili tədbirlər görməkdən ötrü xüsusi komissiya yaratmağı təklif etmişdi.

1920-ci il sentyabrın 20-də B.Şahtaxtinski bilavasitə V.İ.Leninin adına Azərbaycan haqqında və bununla əlaqədar Qafqazda, Türkiyə və İranda vəziyyət barədə ətraflı məruzə təqdim etmişdi. Bütün bunlar 1920-ci il sentyabrın 30-da RSFSR ilə Azərbaycan SSR arasında "Hərbi və iqtisadi ittifaq haqqında" müqavilənin bağlanmasına gətirib çıxarmışdı ki, müqaviləni də RSFSR hökuməti adından xarici işlər komissarı G.Çiçerin və Azərbaycan hökuməti adından Xalq Ədliyyə Komissarı B.Şahtaxtinski imzalamışdı. Əslində 4 maddədən ibarət olan bu yarımçıq müqavilə Rusiyanın Azərbaycana münasibətində imperiya siyasətini pərdələmək vasitəsi idi.

Belə bir dövrdə Türkiyə Rusiyanın Azərbaycana qarşı yeritdiyi siyasətin mahiyyətini dərk edərək, Sevr müqaviləsini (1920-avqust) rədd etdi və daşnak Ermənistana qarşı hərbi əməliyyatını gücləndirib onu Aleksandropol (Gümrü) sazişi (1920-ci il 2 dekabr) bağlamağa məcbur etdi.

Gümrüdə müqavilə imzalanan zaman danışıq proseslərində iştirak edən B.Şahtaxtinski oradan M.D.Hüseynova (Azərbaycanın Xarici İşlər Komissarı-F.İ), surəti S.Orconikidzeyə ünvanlanmaqla teleqram göndərmişdi. Həmin teleqramda B.Şahtaxtinski Türkiyə milli hərəkatının görkəmli liderləri ilə söhbətlərinin məğzini çatdıraraq, onların Rusiya ilə möhkəm ittifaq tərəfdarı olduqlarını, Azərbaycan SSR ilə qarşılıqlı müdafiə müqaviləsi bağlamaq niyyətini və həmin müqavilənin özü tərəfindən təqdim olunan layihəsindən xəbər vermişdi. Bu danışıqlarda türklərin "Azərbaycanın xarici siyasətinə rəhbər saydıqları B.Şahtaxtinski onların siyasi simalarını tamamilə aydınlaşdırmaq məqsədilə səmimiyyət nümayiş etdirmişdi".

Əslində Azərbaycan bu müqaviləni qəbul etmirdi. N.Nərimanov, M.D.Hüseynov və B.Şahtaxtinski tərəfindən imzalanmış və Azərbaycan sovet hökumətinin mövqeyini əks etdirən bəyannamədə göstərilirdi ki, daşnak hökuməti erməni əhalisi tərəfindən devrilmişdir, ona görə də onların imzaladığı bu müqavilənin hüquqi qüvvəsi yoxdur.

Məlumdur ki, N.Nərimanovun "1920-ci il 1 dekabr tarixli bəyanatı"ndan sonra Naxçıvanın da Ermənistana verilməsi haqqında xəbər bölgəyə çatdıqda dekabrın 5-dən etibarən yerli əhalinin buna qarşı kəskin çıxışları baş verdi. Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Respublika İnqilab Komitəsinin üzvü və Ədliyyə Komissarı B.Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. O, Naxçıvan şəhərində, Şərur və Dərələyəz, Ordubad rayonlarında mitinqlər keçirmiş və əhalini nisbətən sakitləşdirmişdi. Bu mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR qəyyumluğunda müstəqil Sovet Respublikası kimi təşkil edilməsi arzusunda olduğunu bildirmişdi.

*Davamı səhifə 20-də*

*Əvvəli səhifə 21-də*

Mitinqlərin nəticələri barədə Azərbaycan və Ermənistan İnqilab Komitələrinə müvafiq məlumatlar verilmişdi.

B.Şahtaxtinskinin Naxçıvanda nüfuzunu nəzərə alaraq AK(b)P MK Siyasi və Təşkilat bürosu 1921-ci il 12 yanvar tarixli qərarı və İnqilabi Hərbi Şurasının mandatı ilə onu Naxçıvana komissar göndərdi.

Bu isə Azərbaycan və xüsusilə də Türkiyəyə bir sıra danışıqlarda (ələlxüsus Rusiya ilə) və bağlanan müqavilələrdə, Naxçıvanın taleyi ilə bağlı məsələlərin müzakirəsində və həllində öz nəticəsini verdi. Həmin dövrdə B.Şahtaxtinskinin ən ali məqsədi-ilk əvvəl türklər tərəfindən Naxçıvanın Azərbaycan SSR-in tərkibində muxtariyyət alacağı barədə təminatın alınması və buna Moskvanın razılığının əldə olunması missiyasının yerinə yetirilməsi idi.

Məhz 1921-ci ilin fevral-martında danışıqlar bu istiqamətdə aparılmış və Azərbaycanın taleyüklü məsələlərinin həllində B.Şahtaxtinskinin əvəzsiz xidmətləri olmuşdur. (Türkiyə, Rusiya) dil tapmış və nəticənin hasil edilməsində (1921-ci il 16 mart-Türkiyə-Rusiya müqaviləsi) özünü mahir diplomat kimi təsdiqləmişdir.

Naxçıvana muxtariyyət qazandırmaq, Moskva müqaviləsində Naxçıvanın müqəddəratını həll etmək asan məsələ deyildi. Ancaq Azərbaycanın milli mənafeyini qoruyan B.Şahtaxtinski buna nail olubdur.

1921-ci ilin martından sonra Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla həm də onu reallaşdırmaq, yəni Türkiyə və Güney Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri nizama salmaq nın materiallarının təhlili göstərir ki, danışıqlar çox gərgin və prinsipial şəraitdə keçmiş, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etmişdilər. Konfransda Türkiyə onunla Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müqavilələr imzalanmasına dair mövqeyini təkrarlasa da, danışıqlarda vasitəçi rolunda iştirak edən Rusiya və əks tərəflər buna razı olmamışdır. Azərbaycanın nümayəndəsi B.Şahtaxtinski isə vahid müqavilənin bağlanmasının Güney Qafqaz respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olduğunu, inqilabi zərurətin bunu tələb etdiyini söyləmişdi. B.Şahtaxtinski bildirmişdi ki, "beynəlmiləl birlik, xalqlarımızın dostlaşması siyasəti bizdən tələb edir ki, Zaqafqaziya respublikaları Türkiyə dövləti ilə birlikdə müqavilə bağlasınlar". B.Şahtaxtinski çıxışının sonunda demişdi: "... mən Azərbaycan Respublikası adından müqavilənin vahid olmasını və bu müqavilədə hər bir respublikaya aid ayrıca fəsillərin olmasını təklif edirəm". Yalnız B.Şahtaxtinskinin çıxışından sonra Türkiyə nümayəndə heyətinin başçısı, Şərq Cəbhəsi komandanı Kazım Qarabəkir paşa öz fikirlərindən daşınmış və 30 sentyabr tarixli iclasda o, bir ümumi müqavilənin imzalanmasına razılıq vermişdi.

**Müasir Azərbaycan dövlətinin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "O vaxt kəskin bir mübarizə gedirdi. Bu mübarizənin nəticəsində Azərbaycanın o vaxtki hökuməti çox ciddi mövqe göstərərək həmin Qars müqaviləsində Naxçıvanın statusunu müəyyən etmiş və Naxçıvana muxtariyyət verilməsi haqqında qərar qəbul edilmişdir.**

# Azərbaycanın görkəmli diplomatı

## Behbud Şahtaxtinski bütün şüurlu həyatını respublikanın daxili və xarici siyasəti ilə bağlayıb

**Bəli, o vaxt o insanlar çox milli qürurlu insanlar olublar. İndi bəziləri onların hamısının kommunist, bolşevik kimi, necə deyərlər, üzərindən qara xətt çəkirlər. Bu, ədalətsizlikdir. Mən buna həmişə etiraz etmişəm, bu gün də etiraz edirəm. Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubluğundan asılı olmayaraq kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar. O vaxt Naxçıvanın muxtariyyəti belə bir gərgin şəraitdə əldə edilibdir. Qars müqaviləsinin altında Azərbaycanın xarici işlər naziri Behbud Şahtaxtinskinin imzası vardır".**

Bu cəhətdən onun 1921-ci il martın 1-də RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə göndərdiyi məktub çox maraqlıdır. Həmin məktubda B.Şahtaxtinskinin Zaqafqaziyada ərazi sərhədlərini və əsasən Naxçıvanla bağlı problemləri çox ədalətli, kiçik xalqların milli mənafeyini nəzərə almaq əsasında humanistcəsinə həll etmək haqqında öz təkliflərini vermişdi. Məktubun məzmunu V.İ.Lenini cəlb etmiş və martın 7-də onun dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilmişdir. RK(b) P MK Siyasi Bürosu martın 16-da İ.Y.Stalinin, İ.Y.Vladimirskinin və G.V.Çiçerinin iştirakı ilə həmin məktuba baxmış və B.Şahtaxtinskinin təklifini bəyənərək Azərbaycan SSR tərkibində Naxçıvan SSR-nin təşkil edilməsi haqqında qərar qəbul etmişdir.

N.Nərimanovun tapşırığı ilə Naxçıvan məsələsi ilə əlaqədar 1921-ci il martın əvvəlində Moskvaya gəlmiş B.Şahtaxtinski bütün mübahisəli məsələlərin həllində hər iki tərəfin nümayəndələri ilə məqsədilə yeni konfrans çağırmaq lazım gəldi. Bu konfransın çağırılması ilə bağlı Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan-Gürcüstan arasında diplomatik yazışmalar getdi və notalar mübadiləsi oldu.

Uzun sürən müzakirələrdən sonra konfransın Qarsda keçirilməsi razılaşdırıldı. AK(b) P MK Siyasi Bürosunun 1921-ci il 16 avqust tarixli qərarı ilə B.Şahtaxtinski Azərbaycan SSR-in konfransdakı nümayəndəsi təyin olundu. Sentyabrın 21-də M.Hüseynov Türkiyə Xarici İşlər Komissarı Yusif Kamal bəyə, Ermənistan Xalq İşləri Komissarı A.Mravyana teleqram vuraraq sentyabrın 26-da Qarsda Güney Qafqaz respublikaları ilə Türkiyə arasındakı konfransı açmaq barədə onların istəklərinə müsbət cavab verdi və B.Şahtaxtinskinin Qars müqaviləsində Azərbaycanın fövqəladə və səlahiyyətli nümayəndəsi təyin edildiyini bildirdi.

18 gün davam edən və altı dəfə işinə fasilə verilən Qars konfransı-

Konfransdan B.Şahtaxtinski M.Hüseynova teleqram vuraraq konfransın işinin normal getdiyini bildirmişdi.

Uzun sürən mübahisə və müzakirələrdən sonra 1921-ci ilin oktyabrın 13-də Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR hökumətləri bir tərəfdən, Türkiyə Böyük Millət Məclisi hökuməti isə digər tərəfdən, RSFSR hökumətinin iştirakı ilə 20 maddə və 3-cü əlavədən ibarət Qars müqaviləsi bağlandı. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə yazılırdı: "Türkiyə hökuməti, sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir".

Müqaviləyə görə, Naxçıvan ərazisinin Türkiyə ilə sərhədi Arazdəyən stansiyasına qədər 11 km uzunluğunda müəyyən edilmiş, İranla sərhədi isə 176 km uzunluğunda, yəni 1828-ci il Türkmənçay müqaviləsində müəyyən olunduğu kimi dəyişilmədən saxlanılmışdır.

Beləliklə, Türkiyə dövlətinin köməyi və mahir diplomat Behbud Şahtaxtinskinin siyasi gedişləri nəticəsində Moskva və Qars kimi beynəlxalq müqavilələrdə Naxçıvanın taleyi həll olunmuşdur.

Müasir Azərbaycan dövlətinin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "O vaxt kəskin bir mübarizə gedirdi. Bu mübarizənin nəticəsində Azərbaycanın o vaxtki hökuməti çox ciddi mövqe göstərərək həmin Qars müqaviləsində Naxçıvanın statusunu müəyyən etmiş və Naxçıvana muxtariyyət verilməsi haqqında qərar qəbul edilmişdir.

Bəli, o vaxt o insanlar çox milli qürurlu insanlar olublar. İndi bəziləri onların hamısının kommunist, bolşevik kimi, necə deyərlər, üzərindən qara xətt çəkirlər. Bu, ədalətsizlikdir. Mən buna həmişə etiraz etmişəm, bu gün də etiraz edirəm. Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubluğundan asılı olmayaraq kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar. O vaxt Naxçıvanın muxtariyyəti belə bir gərgin şəraitdə əldə edilibdir. Qars müqaviləsinin altında Azərbaycanın xarici işlər naziri Behbud Şahtaxtinskinin imzası vardır".

**Gümrüdə müqavilə imzalanan zaman danışıq proseslərində iştirak edən B.Şahtaxtinski oradan M.D.Hüseynova (Azərbayacanın Xarici İşlər Komissarı-F.İ), surəti S.Orconikidzeyə ünvanlanmaqla teleqram göndərmişdi. Həmin teleqramda B.Şahtaxtinski Türkiyə milli hərəkatının görkəmli liderləri ilə söhbətlərinin məğzini çatdıraraq, onların Rusiya ilə möhkəm ittifaq tərəfdarı olduqlarını, Azərbaycan SSR ilə qarşılıqlı müdafiə müqaviləsi bağlamaq niyyətini və həmin müqavilənin özü tərəfindən təqdim olunan layihəsindən xəbər vermişdi.**